# Dostluq prinsiplərinə əsaslanan strateji əməkdaşlıq

## Azərbaycan-Pakistan münasibətləri yeni inkişaf mərhələsindədir



**"Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji əməkdaşlıq uzun illərə söykənən dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Hər iki dövlət tarix boyu bir-birinə dəstək nümayiş etdirib, beynəlxalq aləmdə ortaq maraqlara əsaslanan siyasət yürüdüb".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, bu münasibətlər siyasi, iqtisadi, hərbi, mədəni-humanitar və digər sahələrdə, o cümlədən parlamentlər səviyyəsində inkişaf edərək daha da dərinləşib. Azərbaycan ilə Pakistan arasında diplomatik əlaqələr 1991-ci ildə, ölkəmizin müstəqilliyini bərpa etməsindən dərhal sonra qurulub. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub ki, bu da iki ölkə arasında sıx münasibətlərin əsasını qoyub. Qarşılıqlı hörmət və etimada söykənən bu münasibətlər xüsusilə 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin Kasablankada Pakistanın ovaxtkı baş naziri Benazir Bhutto ilə görüşündən sonra inkişaf mərhələsinə qədəm qoyub. "Prezident İlham Əliyev də Pakistanla əlaqələrin inkişafına xüsusi önəm verir. Onun 2005-ci və 2017-ci illərdə Pakistana rəsmi səfərləri, eləcə də Pakistan rəhbərliyinin Azərbaycana rəsmi səfərləri iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edib. Son illərdə Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığı da strateji tərəfdaşlıq münasibətlərini gücləndirib", - deyə deputat əlavə edib.

Azərbaycan və Pakistan arasındakı iqtisadi-ticari əlaqələrin strateji xarakter daşıdığını deyən siyasətçi qeyd edib ki, ikitərəfli ticarət dövriyyəsinin artırılması, gömrük və logistika sahəsində əməkdaşlığın dərinləşdirilməsi prioritet hədəflər sırasındadır. Azərbaycan neft-qaz sektorunda təcrübəsi ilə, Pakistan isə əczaçılıq, tekstil və kənd təsərrüfatı sahələrində əməkdaşlıq potensialı ilə qarşılıqlı investisiyaları təşviq edir.

P.Vəliyeva vurğulayıb ki, Azərbaycanın Avropa və Asiyanı birləşdirən mühüm nəqliyyat dəhlizləri üzərində yerləşməsi Pakistan üçün yeni ixrac imkanları yaradır: "Hər iki ölkə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və D-8 çərçivəsində iqtisadi əlaqələri daha da genişləndirmək niyyətindədir. Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Müdafiə sənayesi, birgə hərbi təlimlər və texniki təcrübə mübadiləsi bu sahədə əsas fəaliyyət istiqamətləridir. Azərbaycanın Pakistan istehsalı olan JF-17C çoxməqsədli döyüş təyyarələrini əldə etməsi bu əməkdaşlığın praktik nəticələrindən biridir. Hərbi sahədəki əlaqələr yalnız müdafiə qabiliyyətinin artırılmasına deyil, həm də regional sabitliyə töhfə verir. Pakistan hərbi texnologiyaları və kadr hazırlığı sahəsində Azərbaycana mühüm dəstək göstərir".

Deputat bildirib ki, iki ölkə arasında mədəni və humanitar sahədə də sıx əməkdaşlıq mövcuddur. Hər iki xalq ortaq islam dəyərləri və tarixi bağlarla bir-birinə yaxındır. Təhsil sahəsində tələbə mübadiləsi, mədəniyyət günləri və birgə layihələr xalqlar arasında dostluğu daha da möhkəmləndirir. Heydər Əliyev Fondunun Pakistandakı humanitar layihələri, xüsusilə təhsil və səhiyyə sahələrində görülən işlər iki ölkənin qardaşlıq münasibətlərinin bariz nümunəsidir. Heydər Əliyev Fondu tərəfindən məktəb tikintiləri, su təchizatı sistemlərinin qurulması və tibbi yardım aksiyaları Pakistan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Deputat qeyd edib ki, Azərbaycan-Pakistan münasibətləri gələcəkdə daha da dərinləşəcək. İqtisadi əməkdaşlığın genişləndirilməsi, yeni ticarət marşrutlarının açılması və sərmayə qoyuluşunun təşviqi, hərbi tərəfdaşlığın gücləndirilməsi, müdafiə texnologiyaları sahəsində yeni layihələrin həyata keçirilməsi, mədəni əlaqələrin möhkəmləndirilməsi, təhsil və mədəniyyət sahələrində birgə proqramların artırılması, vizanın sadələşdirilməsi ilə qarşılıqlı turizm axınının gücləndirilməsi bu yöndə müsbət təsirini göstərəcək. Bu hədəflər iki ölkənin regional və beynəlxalq aləmdə mövqeyini daha da gücləndirəcək, xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-25 fevral (№42).- S.8.